# Gədəbəydə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü"ndən danışılmışdır




**Gədəbəydə "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlərin keçirilməsi davam edir. Növbəti belə tədbir "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusuna həsr olunmuşdur.**

Çıxış edən rayon icra hakimiyyətinin başçısı Orxan Mürsəlov Ulu Öndər Heydər Əliyevin qeyri-adi idarəçilik bacarığından, yüksək vətənpərvərliyindən, uzaqgörən və məqsədyönlü siyasəti ilə istər sovetlər, istərsə də müstəqillik dövründə Azərbaycan xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün ömrünü xalqımızın rifahı və müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi və qüdrətlənməsinə həsr etmişdir.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı Elman Nəsirov da xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan və Azərbaycanın bu gün qətiyyətlə irəliləməsindən, gücünü və qüdrətini durmadan artırmasından danışmışdır.

Sonra söz rayon ağsaqqallarına verilmişdir. Onlar Ulu Öndərlə bağlı xatirələrindən danışmış, onun əziz xatirəsini həmişə uca tutduqlarını qeyd etmiş və dahi rəhbəri minnətdarlıqla andıqlarını diqqətə çatdırmışlar. Bildirmişlər ki, Heydər Əliyevin dövlətçiliyimizin qorunub saxlanılması və möhkəmlənməsi istiqamətində tarixi missiyasını bu gün davam etdirən Prezident İlham Əliyevin iradəsi sayəsində 44 günlük Vətən savaşında xalqımız qəhrəmanlıq salnaməsi yazaraq tarixi ədaləti bərpa etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 7 aprel.- S.6.